# *Qədir ASLAN-80*



Hörmətli Qədir Aslan!

Siz tanınmış qələm adamı, yazıçı-publisist, Azərbaycan Respublikasının Əməkdar jurnalistisiniz. Ötən əsrin 60-cı illərində Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində ali peşə təhsili alandan sonra doğma yurdunuz Göyçədə, Qərbi Azərbaycanda, o vaxtkı sovet Ermənistanında "Bolluq uğrunda", "Vardenis" qəzetlərində jurnalist, xüsusi müxbir, məsul katib vəzifələrində çalışmış, dövrün qabaqcıl mətbu orqanları ilə əməkdaşlıq etmisiniz. Siz də həmvətənlərimiz kimi, Qərbi Azərbaycandan, o vaxtkı Ermənistan SSR-dən qaçqın düşəndən sonra Bakıda məskunlaşmış, uzun illər "İşıq" nəşriyyatında redaktor kimi səmərəli fəaliyyət göstərmiş, iyirmi ildən artıq bir müddətdə "Respublika" qəzetində çalışmış, "Diaspora" şöbəsinin müdiri olmusunuz və indi də həmin vəzifədə eyni şövqlə çalışır, paralel olaraq "Elin səsi-press", "Qərbi Azərbaycan-press", "Zəngəzurun səsi" və başqa mətbu orqanları üçün yazılar yazırsınız. Sizin fəaliyyətinizin işıqlı tərəflərindən biri və bəlkə də ən önəmlisi, didərgin və doğma, tarixi Azərbaycan topraqlarının, eləcə də bu torpaqların yetirdiyi Şəhid və qəhrəman övladlarımızın, ümumiyyətlə, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda Şəhid olmuş, şücaət göstərmiş övladlarımızın qəhrəmanlıq hekayələrini, tarixçələrini yazmaq olub. Siz eyni zamanda Qərbi Azərbaycan salnaməsini yazmış dəyərli qələm adamlarındansınız. "Göyçə şəhidləri", "Goranboy qartalları", "Borçalının Qəhrəman oğlu", "XX əsrin Koroğlusu", "Səbailin şahin oğulları", "Oğuz yurdunun Milli Qəhrəmanları" kimi çox qiymətli kitabların müəllifisiniz. Fəaliyyətiniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Əməkdar jurnalist fəxri adına layiq görülmüsünüz. "Qızıl qələm" mükafatı laureatısınız. Başqa nüfuzlu mükafatlara, eləcə də Türkiyə, Ukrayna, Belarus, Moldova, Özbəkistan, Rusiya Federasiyasındakı Azərbaycan diaspora təşkilatlarının ödülləri, fəxri fərman və təltiflərinə layiq görülmüsünüz. Övladlarınız sırasında fəaliyyətinizi davam etdirən layiqli insanlar var. İndi siz ömrünüzün 80-ci baharını yaşayır, yenə də əvvəlki gənclik şövqü ilə çalışır, işləyirsiniz. Sizi bu şanlı yubileyiniz münasibətilə səmimiyyətlə təbrik edir, sizə möhkəm cansağlığı, yenə də əvvəlki kimi yorulmazlıq arzu edirik.

**Azərbaycan Yazıçılar Birliyi**